# Ağacəkmə aksiyası



Qəbələ rayonunda "8 Noyabr – Zəfər Günü" ilə əlaqədar ağacəkmə aksiyası keçirilmişdir. Aksiyada rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələrinin üzvləri, rayon ictimaiyyəti və könüllülər xüsusi ayrılmış ərazidə 2500 ədəd ağac əkmişlər.

# Talassemiyasız həyat naminə



Qəbələ rayon Mərkəzi Xəstəxanası Publik Hüquqi Şəxsində Respublika Qan Bankı tərəfindən Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində "Sən də bizə qoşul, qanınla can ver"adlı qanvermə aksiyası keçirilmişdir. Aksiyada icra hakimiyyətinin, hüquq mühafizə orqanlarının, idarə-müəssisə və təşkilatların əməkdaşları və könüllülər iştirak etməklə 163 nəfər donor olaraq qan vermişdir. Toplanılan qan irsi qan xəstəliyindən əziyyət çəkən xəstələr üçün nəzərdə tutulmuşdur.

# İntellektual yarış

Zəfər Günü ilə əlaqədar gənclər arasında intellektual yarış keçirilib. Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi, Gənclərin İnkişaf və Karyera Mərkəzi Qəbələ bölməsinin nümayəndəlikləri və Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin müəllim və tələbələrinin iştirak etdiyi tədbirin keçirilməsində məqsəd gənclərin intellektual səviyyəsinin inkişaf etdirilməsinə, tariximiz haqqında biliklərinin genişləndirilməsinə, onların asudə vaxtlarının səmərəli təşkil edilməsinə şərait yaratmaqdır. Sonda 1-ci yerə layiq görülən "Şuşa komandası"nın üzvlərinə diplom və hədiyyələr təqdim olunub.

**"Qəbələ səsi"**

# Zamanı dəyərləndirmək sağlam həyatın rəhnidir




Hər bir mətbu orqanı sabahkı tarixdə bu günün yazılı mənbəsidir. Şifahi məlumatlar yaddaşlarda nə qədər yaşasa da yazılı şəkildə sabahkı nəslə çatdırılan dövrü məlumat və hadisələr, bir sözlə, doğru və düzgün faktlarla saxlanılır və bu xronoloji məlumatlara lazım gəldikdə istinad edilir.

Rayonumuzda bir mətbu orqanı - "Qəbələ səsi" qəzeti fəaliyyət göstərir. Bu günlərdə həmin qəzetin məsul redaktoru, jurnalist Bibixanım İsayevanın redaktorluğu ilə "Zaman və həyat" jurnalı da nəşr olunmuşdur. Bu müstəqil ədəbi-publisistik jurnaldır. Jurnalın ilk - oktyabr nömrəsində vətənpərvərlik, milli-mənəvi zənginlik, tarixi şəxsiyyətlər haqqında yazılar verilmişdir.

Həmçinin rəssamlıq, nəzm, nəsr əsərlərindən nümunələr də "Zaman və həyat" jurnalında öz əksini tapmışdır. Onu da qeyd edək ki, jurnalda yalnız Qəbələ deyil, Azərbaycanın müxtəlif bölgələrindən olan qələm sahiblərinin, həvəskar yazarların yazdıqları materiallar dərc olunmuşdur. Bu missiya gələcək nömrələrdə həm mövzu, həm də əhatə dairəsi baxımından genişləndiriləcəkdir.

Həyat davam edir, zamansa hər anı tarixləşdirir. Axı zaman saniyə ilə ölçülür. Hər saniyə isə dəqiqə, saat, gün və həftə, daha sonra ay, il, əsr və minilliklərə çevrilir. Zaman tarixə çevrildikcə jurnal da bütün nömrələrilə xalqımıza xidmət etmək məqsədilə ölkəmizin ictimai-siyasi həyatını doğru-düzgün əks etdirən materiallarla nəşr olunmağa çalışacaq. Biz buna inanırıq.

Yeni nəşrin mübarək! Jurnalın redaktoruna və redaksiya heyətinə uğurlar!

**İlahə RƏHİMOVA,**
**"Qəbələ səsi"nin jurnalisti.**

# Durucada yeni layihə həyata keçirilmişdir

PRES-RELİZ Agentliyinin maliyyə dəstəyi ilə Qəbələ rayonunun Duruca kəndində turizmin İnkişafına dəstək layihəsi uğurla icra edilib. Layihənin əsas məqsədi kənd turizminin inkişafını təşviq etmək, yerli icma üzvlərinin bu sahədə bilik



və bacarıqlarını artırmaq və həssas qrupların iqtisadi fəallığa cəlb olunmasına dəstək göstərməkdən ibarət olub.

Layihə çərçivəsində ictimai iaşə müəssisələrində çalışanlara və yerli sakinlərə "turizm və otelçilik, bələdçilik, xidmət və qonaqlama" mövzularında dörd təlim keçirilib. Təlimlərdə iştirakçılara kənd turizminin inkişaf perspektivləri, müasir turizm sektorunun tələbləri, qonaqpərvərlik standartları, etik davranış qaydaları, müştəri məmnuniyyətinin artırılması və turizm xidmətlərinin keyfiyyətinin yüksəldilməsi ilə bağlı ətraflı məlumat verilib.

Həmçinin xanımlar üçün milli və müasir üslubda əl işləri hazırlamaq üzrə üç praktiki təlim təşkil olunub.



Bu təlimlər iştirakçıların yaradıcılıq potensialını aşkara çıxarmaqla yanaşı, onların gələcəkdə kiçik biznes qurmaq imkanlarını genişləndirib və sosial inteqrasiyasını gücləndirib. Təlimlər Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində həyata keçirilib və 5 noyabr 2025-ci il tarixində Təhsil Mərkəzi ilə birgə hazırlanmış "Qələbənin 5 ili" adlı Zəfər tədbirində əl işi öyrədilmiş xanımların onlara paylanmış materiallardan hazırlanan əl işlərinin satış-sərgisi təşkil olunub.

Layihənin mühüm istiqamətlərindən biri kimi Duruca kəndində yerləşən ənənəvi söhbətgah və bulaq kompleksinin bərpası həyata keçirilib. Bu təşəbbüs kəndin turizm infrastrukturuna mühüm töhfə olmaqla yanaşı, yerli mədəniyyətin qorunmasına da xidmət edəcək.

"Əlilliyi olan şəxslərə sosial dəstək" İctimai Birliyinin həyata keçirdiyi layihələr, xüsusən də kənd icmalarında sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılmasına, məşğulluğun artırılmasına və inklüzivliyin təşviqinə yönəlib.

**Təranə MUSAYEVA,**
**"Əlilliyi olan şəxslərə sosial dəstək" İctimai Birliyinin sədri.**

# Zəfər sevinci proqramı

Qəbələ şəhər Heydər Əliyev Parkında Zəfər Gününə həsr edilmiş yerli mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə konsert proqramı təşkil edilmişdir.






# Qələbə müstəqillik tariximizin ən parlaq səhifəsidir

44 günlük müharibə tariximizə qızıl hərflərlə yazıldı, xalqımızın taleyində mühüm dönüş yaratdı.

Otuz il ərzində erməni vəhşiliyinin qurbanına çevrilən xalqımız bu günü səbirsizliklə gözləyirdi. Xalq hər zaman Ali Baş Komandanın ətrafında sıx birləşib dünyaya həmrəylik nümunəsini göstərmişdir. Prezident İlham Əliyevin uzaqgörən daxili və xarici siyasətinə arxalanan xalq ərazi bütövlüyünün bərpası gününün heç də uzaqda olmadığını yaxşı bilirdi. Bütün yolların Qarabağın azadlığına apardığını bilən xalq bu illər ərzində xüsusu dözüm, iradə, təmkin və səbr göstərdi. Buna görə hər bir atılan addım Azərbaycanı Qarabağın azadlığına yaxınlaşdırırdı. Bütün istiqamətlərdə qazanılan uğurların, əldə edilən nailiyyətlərin bir hədəfi var idi - işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi və Azərbaycanın bütün sərhədləri boyunca bayrağımızın dalğalanması. Və sonunda xalq istək və arzusuna çatdı.

2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və Ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Müzəffər Ali Baş Komandan İlham Əliyev Prezident kimi 17 illik gərgin əməyinin nəticəsində Azərbaycanı ərazi bütövlüyünə qovuşdurdu, xalqımızı dünyada mübariz, döyüşkən və müzəffər xalq kimi tanıtdı. Xalqın dəstəyi, tarixi haqq-ədalət Azərbaycanı Qalib ölkəyə çevirdi. Hər zaman humanizm, xeyirxahlıq əməlləri ilə nümunə olan dövlətimiz xalqın, güclü ordunun şücaət və rəşadəti ilə yeni tarix yazdı. Beləcə, 44 günlük müharibədə qazanılan Qələbə müstəqillik tariximizin ən parlaq səhifəsinə çevrildi. Bu səhifəni xalq, ordu və baçarıqlı lider İlham Əliyev yazdı. Birlikdə yazıldı bu şanlı səhifələr. Qazanılmış böyük Qələbə uzun illər ərzində davam edən hazırlıq işlərinin, habelə dövlətin qüdrətinin artırılması istiqamətində atılan addımların nəticəsi oldu.

Müzəffər Ali Baş Komandan İlham Əliyevlə sıx birləşən xalq böyük "Azərbaycan xalqı" adını tarixə möhürlədi. 30 il ərzində xalq bütün olanlara mərdliklə sinə gərdi, zamanın hesabını gözlədi. 1988-ci ildən azərbaycanlıların Qərbi Azərbaycan torpaqlarından deportasiya edilməsi, müxtəlif ərazilərdə işgəncələrə məruz qalması, Xocalı faciəsi və s. bu kimi yaşadıqlarımız bizi mənən, ruhən böyütdü. Nəhayət birləşdik, böyük bir xalq nümunəsini dünyaya bəyan etdik, dədə-baba torpaqlarımıza qayıtdıq. Bu qayıdış Böyük Qayıdış olmaqla təkcə azərbaycanlıların Qarabağ deyil, vaxtilə deportasiya edildikləri bütün tarixi torpaqlarına qayıdışını əhatə etdi. Beləliklə, 44 gün ərzində yeni möhtəşəm tariximiz yazıldı. İndi Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin böyük uzaqgörənliklə qurduğu strategiya Azərbaycan dövlətini daha qüdrətli, Azərbaycan xalqını daha güclü, Azərbaycan bayrağını daha uca etməyə hədəflənib. Böyük Qələbənin nəticəsində yaradılmış yeni reallıq dünyaya nümayiş olundu. Azərbaycan əsgəri, Azərbaycan lideri,Azərbaycan xalqı dünyaya birlik, əzəmət, ucalıq və şərəf mücəssəməsi oldu. Bizim müharibəmiz azadlıq müharibəsi idi, ədalətli müharibə idi. Ona görə bizim hərbçilərimiz şəhidlik zirvəsinə ucalaraq Vətən qarşısında öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirmişlər. Onların qəhrəmanlığı, şücaəti, fədakarlığı hər bir azərbaycanlı üçün örnək, gənc nəsil üçün yeni vətən tarixi oldu. 44 gün ərzində arzularımız reallaşdı, dövlətimizin gördüyü bütün işlər bəhrəsini verdi. Qazanılmış Qələbə müstəqillik tariximizin ən parlaq səhifəsi kimi tariximizə yazıldı. Bu gün bunun nəticəsidir ki, Zəfər bayramını qürur və fəxarətlə qeyd edirik, ruhumuzla yaşayırıq, şəhidlərimizin vətən göylərində dolaşan rahat ruhlarını hiss edirik.

**İlhamə SEYIDOVA,**
**"Qəbələ səsi"nin ştatdankənar müxbiri.**